# Mədəniyyət paytaxtımızın İsveç təqdimatı






**İsveç Krallığının paytaxtı Stokholm şəhərində "Şuşa İli" çərçivəsində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə hazırlanmış "Mədəniyyət kodu–Şuşa" lonqridinin – elektron bələdçisinin təqdimat mərasimi keçirilib.**

Bu barədə şimal ölkəsindən soydaşlarımızın redaksiyamıza göndərdiyi xəbərdə bildirilir ki, ölkəmizin İsveç Krallığındakı səfiri Zaur Əhmədov gerçəkləşdirilən layihənin Azərbaycanın mədəniyyət paytaxtının xarici aləmdə geniş tanıdılmasına xidmət etdiyini, xarici auditoriya üçün önəmini açıqlayıb. Diplomat təqdimatın məhz İsveçdə keçirilməsinin bu ölkədə çoxsaylı soydaşlarımızın yaşaması və İsveçdə Azərbaycana olan böyük maraqla bağlı oduğunu vurğulayıb, iki dövlət arasında mədəni əlaqələrə töhfə kimi qiymətləndirib.

Layihənin müəllifi, "İctimaiyyətlə əlaqələrin inkişafına kömək" İctimai Birliyinin sədri, Bakı Slavyan Universitetinin professoru, Əməkdar jurnalist Şəlalə Həsənova Şuşanın bütün Türk dünyasında yüksək mənəvi dəyər daşıdığını, şəhərin mədəniyyət kodunun Pənahəli xanın yaratdığı xoşbəxt şəhər konsepsiyasına əsaslandığını qeyd edib. O, 28 illik işğal və dağıntıdan sonra bu dağlar gözəlinin dünyanın nadir turizm obyektlərindən biri kimi dirçəldiyini qeyd edib, billur şəhərin avropalılar üçün də cəlbedici olduğunu söyləyib.

Birliyin sədr müavini Sindi Şükürova və İsveçdə yaşayan alim Səadət Kərimi rus, isveç və ingilis dillərində hazırlanmış, https://codeshusha.com/ saytında yerləşən bələdçi barədə ətraflı məlumat veriblər. Bildirilib ki, internet-bələdçidə Şuşa, eləcə də Qarabağ haqqında tarixi-ensiklopedik məlumat 21 mövzu üzrə 7 bölmədə verilib. Saytın üz qabığındakı Xarıbülbülün hər ləçəyi açılaraq mövzuları təqdim edir, bu zaman müvafiq Azərbaycan musiqisi səslənir.

Sayt Azərbaycan mediasında yüksək lonqrid standartlarına uyğun hazırlanmış ilk yeni media məhsuludur. Dalma jurnalistikası standartları ilə fitçer üslubunda yazılmış mətn maraqlı fotolar, videoçarxlar, musiqi kompozisiyaları ilə zənginləşdirilib. İnternet məkanında ilk dəfə "Şuşa məhəlləri", "Qarabağ ərazisində Alban kilsələri" interaktiv xəritələri, "Şuşalı musiqiçilərin qızıl nəsli" adlı nəfis infoqrafika hazırlanıb.

Əməkdar artist Tahir İmanov və 92 yaşlı jurnalist Məryəm Zöhrabbəyova mərasimdə Şuşa barədə xatirələrini bölüşüblər.

**T.RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 29 noyabr.- S.5.